## CULTURE AND WORLDVIEW

*Associate Professor Salimov Mahir Mammadali*

***Summary***

The article deals with the issues of the adequacy of the concepts of "culture" and "worldview" used in the scientific literature. It is argued that these terms are used in a general context as separate concepts. It is reported that the use of the word "culture" in recent years, both in scientific terminology and in our everyday language, is usually closely related to the fact that the achievements we have made in the past are taken as evidence that they have deep historical roots. It is noted that the concept of "worldview", widely used in our native language, is accepted as a certain stage of development. According to the author of the article, both concepts contain the cornerstones of our current development and contribute to their understanding as "national-cultural thinking" and "worldview of Azerbaijanism".

***Rəyçi : dos. B.İ.Ələsgərov***

***ADPİ-nun Ağcəbədi filialının İctimai təbiət fənləri və onların tədrisi texnologiyası kaderasını 02 fevral 2023-cü il tarixli protokolundan çıxarış (pr №12)***

***Daxil olma tarixi 22 fevral 2023-cü il***

**UOT:94(479.24).**

## XIX ƏSRİN ƏVVƏLLƏRİNDƏ ŞİMALİ AZƏRBAYCAN BÖLGƏLƏRİNİN SOSİAL STRUKTURUNA DAİR
### (İrəvan, Naxçıvan, Şamaxı və Quba bölgələri üzrə)

***Əhmədova Yeganə Mehman qızı***
***Gəncə Dövlət Universiteti***
***yeganegdu@mail.ru***

**Xülasə:** *Məqalədə Rusiya işğalı dövründə İrəvan, Naxçıvan, Şamaxı və Quba xanlıqlarının inzibati-idarəçilik sistemində fəaliyyət göstərən müxtəlif təbəqələrin malik olduqları səlahiyyətlərdən və vəzifələrdən bəhs olunur. Məqalənin ümumi məzmunundan aydın olur ki, bəzi istisnalar olmaqla bu bölgələrin sosial strukturunda elə də ciddi fərq olmamış və ayrı-ayrılıqda bütün təbəqələrə malik olan vəzifələr demək olar ki, eyni olmuşdur. Xüsusilə göstərilən bölgələrdə bəy vəzifəsinə malik olanların kateqoriyaları bir-birindən çox fərqlənməmiş, yalnız Quba xanlığında bir qədər fərqli olmuşdur.*

**Açar sözlər:** sahibkar, kəndlilər, təbəqə, vəzifə, vergi
**Ключевые слова:** владелец, селчани, уровен, должность, налог
**Key words:** owner, villagers, layer, position, tax

XIX əsrin əvvəllərində Rusiya tərəfindən bir qədər tez işğal olunmuş Şamaxı və Quba xanlıqlarından fərqli olaraq, sonradan işğal edilmiş İrəvan və Naxçıvan xanlıqlarında xanların daxili idarəçilik hüququ daha uzun müddət saxlanılmış və həmin bölgələr öz qayda-qanunları və şəriət qaydalarına əsasən idarə olunmuşdur. Bu bölgələr bir qədər gec işğal olunduqlarına görə, öz mövcud sosial strukturunu müəyyən müddətə qədər qoruyub saxlaya bilmişdir.

Azərbaycan xanlıqları yaranan zaman müxtəlif xanlıqların ərazisində məskunlaşan əhalinin sosial-silki tərkibində spesifik xüsusiyyətlər meydana çıxmışdı. Bütün Azərbaycan xanlıqları əhalisinin sosial-silki tərkibi bir-birindən ciddi surətdə fərqlənmirdi. Xanlıqların əhalisi hakim silkə və aşağı təbəqəyə bölünürdü. Hakim silkin tərkibinə xanlar, bəylər, sultanlar, məliklər və ali müsəlman ruhaniləri daxil idilər. Aşağı təbəqə isə başlıca olaraq rəiyyət, rəncbər, elat və nökərlərdən ibarət idi. Xanlıq əhalisinin sosial strukturunda maaflar xüsusi mövqe tuturdular. Bəylər hakim silkin əsasını təşkil edərək, mühüm siyasi qüvvə hesab

olunurdular. Rəiyyətlər isə aşağı təbəqəyə məxsus olan əhalinin əsas hissəsini təşkil edirdilər. Rəiyyətlərdən sonra aşağı təbəqənin mühüm hissəsinə rəncbərlər daxil idilər [1, 21].

İrəvan xanlığında xanın qeyri-məhdud hakimiyyətinə baxmayaraq, onun yanında xüsusi məsləhətçi şura olan Divan da fəaliyyət göstərirdi. Divanın tərkibi xan da başda olmaqla yüksək vəzifəli şəxslərdən ibarət idi. Divanda mühüm və dövlət əhəmiyyətli məsələlər müzakirə olunurdu. Burada müharibə, sülh, vergilərin toplanılması və qatı cinayətlər kimi bu və ya digər məsələlər həll edilirdi [2, 271-272]. İrəvan hakiminin yanında fəaliyyət göstərən divanda ən yüksək vəzifələri vəzir, xanın yaxın adamları və hər birinin müəyyən fəaliyyət sahəsi olan bir neçə mirzə və din xadimlərindən şeyxülislam tuturdu. Divanın başçısı divanbəyi hesab olunurdu. O, xanın ən yaxın adamları və ya nüfuzlu ruhanilər arasından təyin olunurdu. Divanbəyilərin müəyyən məsələlərin həllində böyük rolu olurdu [3, 451].

İrəvan xanlığının kəndlərində isə hakimiyyət ağsaqqal vəzifəsini yerinə yetirən kəndxuda və məlikin əlində idi. Kəndxuda Azərbaycan türklərinin yaşadığı kəndlərə, məlik isə erməni kəndlərinə başçılıq edirdi. Kəndxuda və məliklər xanlıqda ən aşağı idarə orqanı sayılsa da, onların xanın yanında böyük nüfuzları var idi. Kənd ağsaqqalları bir tərəfdən kənd icması, digər tərəfdən isə xan idarə mexanizmi arasında vasitəçi rolunu oynayırdılar. Onlar xanın əmr və tələblərinə tabe olurdular [2, 410].

İrəvan xanlığının imtiyazlılar silkinə maldarlıqla məşğul olan və elat başçıları olan elbəyilər də daxil idilər. Külli miqdarda var-dövlətə sahib olan elbəyilər silahlanmış çevik hərbi qüvvəyə malik olduqlarından, onlar müharibələr dövründə xanlara çox lazım olurdular. Elbəyilər vergi və mükəlləfiyyətlərdən azad olmaqla yanaşı, xandan müxtəlif hədiyyələr və geniş otlaq sahələri də alırdılar. Lakin xanlar elbəyiləri həmişə nəzarət altında saxlamağa çalışır, istədikləri şəxsi elat başçısı təyin edir və onlar arasında baş verən mübahisələrə də qarışırdılar [2, 410-411].

İrəvan xanlığında xanlar mütləq hakim idilər və hakimiyyət atadan oğula irsi olaraq keçirdi. Xan mütləq hakim olmaqla bərabər, iri torpaq sahələrinə malik olduğundan, həm də iri mülkədar hesab olunurdu [2, 408].

Naxçıvan xanlığında da hakim feodallar arasında xanlar birinci pillədə, bəylər, ağalar isə sonrakı pillədə əsas yer tuturdular. Burada da ən ali hakim zümrə sayılan xanların xanlıq hüququ irsi səciyyə daşıyırdı [4, 46].

Naxçıvan xanlığının əhalisi öz hüquq və vəzifələrinə görə vergi verənlərə və vergidən azad olunanlara bölünürdülər. Vergidən azad olunanları xan ailəsinin üzvləri, bəylər, sultanlar, məliklər, din xadimləri (axund, molla, seyid və s.) təşkil edirdilər. Kəndlilər, sənətkarlar, ticarətlə məşğul olanlar kimi gəliri olan şəxslər vergi verənlər qrupuna daxil idilər. Vergidən azad olunmuş ailələr başlıca olaraq Naxçıvan bölgəsində, xüsusilə Naxçıvan şəhərində, Ordubad bölgəsi üzrə isə Ordubad şəhərində yaşayırdılar [5, 38].

İrəvan xanlığında xandan sonra ali silkin növbəti pilləsində bəylər dayanırdılar. Bəy rütbəsini ali silk nümayəndələrindən olan xanın övladları, qohumları, onların varisləri, həmçinin xidmətinə və ləyaqətinə görə bu adla təltif olunmuş şəxslər daşıyırdılar. İrəvan xanlığında bəylər 3 qrupa bölünürdülər. Birinci qrupa Səfəvi şahlarının xüsusi fərmanı əsasında bəy rütbəsini alanlar və onların nəslindən olan irsi bəylər daxil idi. Onlar xüsusi mülkiyyət sahibi idilər və bəylik onlar üçün irsi səciyyə daşıyırdı. İrsi bəylər xana qulluq etməyə borclu deyildilər, lakin bəzi hallarda gəlirlərinin bir hissəsini xəzinəyə verməli olurdular. Bu bəylər xalq arasında böyük nüfuz sahibi olduqlarından, xanlar onlarla ehtiyatla davranırdılar. İrsi bəylərə məxsus olan kəndlərin inzibati və hüquqi hakimiyyəti də onların əlində cəmləşmişdi [2, 409].

Lakin İrəvan hakimləri hər vasitə ilə irsi bəylərin nüfuzunu aşağı salmağa çalışırdılar. Məsələn, sonuncu İrəvan xanı olan Hüseyqulu xan (1806-1827) bəylərə məxsus olan kəndləri və onlardan gələn gəlirləri hesaba alaraq, bu kəndlərin bəzilərini ayrı-ayrı şəxslərə tiyul kimi paylayırdı. Məsələn, Hüseyqulu xan irsi bəylərdən Hümmət bəyə, Rəsul

bəyə, Kərim bəyə və Mehdi bəyə məxsus olan kəndlərin bir və ya ikisini tiyul şəkilində başqasına vermişdi [2, 409].

İkinci qrupa xana göstərdikləri xidmətin əvəzində və onun mərhəməti ilə bəy rütbəsini alanlar daxil idilər. Bu bəylərin başlıca vəzifəsi həmişə xanın xidmətində dayanmaq idi. Xan xüsusi xidmət müqabilində xəzinəyə məxsus olan və ya müsadirə edilmiş kəndləri onlara hədiyyə olaraq verirdi. Mükafatlandırılmış bəylər həmin kəndlərin gəlirləri ilə dolanırdılar. Lakin bu rütbə onlara müvəqqəti verilir, qulluq başa çatdıqdan sonra geri alınırdı [2, 409-410].

Üçüncü qrupa isə kənd ağsaqqalları olan kəndxudalar, rəislər və erməni icma başçıları daxil idi ki, onlar da bəy adını müvəqqəti alanlar idilər. Onlar təyin olunduqları vəzifədə müvəqqəti olaraq fəaliyyət göstərdiklərinə görə, hər hansı sənəd və ya fərman almırdılar. Həm Azərbaycan türklərinə məxsus olan kəndlərin ağsaqqalları, həm də erməni kənd ağsaqqalları bu vəzifə üçün heç bir məvacib almır və əhalidən alınan vergilərin hesabına dolanırdılar [2, 410].

Şamaxı xanlığında da xandan sonra ali zümrənin əsas hissəsini bəylər təşkil edirdilər. Azad silkin digər nümayəndələri kimi, bəylər də heç bir vergi ödəmirdilər. İrəvan xanlığında olduğu kimi, burada da bəylər hakim sülalə nəslindən olan bəylərə, köklü bəylərə, bəy adını və hüququnu alanlara bölünürdülər [6, 112]. Bəylərin əsas vəzifəsi öz hesablarına xana hər cür xidmətə hazır olmaları idi. Bəylərin vəziyyəti bütün xanlıqlarda, o cümlədən Şamaxı xanlığında eyni deyildi. Məsələn, Şamaxı xanlığında bəylər bəzi hallarda idarə etdikləri kəndlərin müqabilində xana tabe olmaq istəmirdilər. Xan bu silkin nümayəndələri ilə bir az ehtiyatlı davranır, onlardan yalnız müti olmağı tələb edir və əzəli hüquqlarını pozmağa cəsarət etmirdi [6, 116].

Şamaxı xanlığında xan bəylərdən öz mənafeyi üçün istifadə etməyə çalışsa da, bəylər hakimiyyəti öz əllərində saxlamağa çalışır və buna görə də çox vaxt onlar müstəqilləşirdilər. Xan isə öz növbəsində həmin bəylərin onun hakimiyyəti altından tamamilə çıxa biləcəklərindən ehtiyat edərək, onlara toxunmurdu. Xan əsas etibarilə köklü bəylər kateqoriyasına mənsub olanlarla bu cür münasibət qurmağa çalışırdı [4, 46-47]. Göründüyü kimi, İrəvan xanlığında olduğu kimi, Şamaxı xanlığında da xan tərəfindən köklü bəylərə qarşı münasibət eyni səciyyə daşıyırdı.

Quba xanlığında bəylər əsl-nəsillərinə və ictimai mövqelərinə görə nəsli bəylərə və xidməti bəylərə bölünürdülər. Nəsli bəylərə xan və onun nəsil şəcərəsinə aid olanlar, eləcə də əvvəllər Səfəvi şahlarından müəyyən inzibati ərazilərin idarəçilik hüququnu almış şəxslər daxil idilər. Nəsli bəylərin sayları az olsa da, onlar yüksək vəzifələrə təyin olunur və xalq arasında böyük nüfuz sahibi olurdular. Məsələn, Quba xanlığında Alpan və Buduq bəyləri, Quba xanı və onun qohumları, qazı Həsən Əfəndinin nəslinə mənsub olanlar, bəzi mahal bəyləri nəsli bəylər qrupuna daxil idilər [7, 163].

Xidməti bəylərin əksəriyyəti müəyyən inzibati və hərbi xidmətləri müqabilində Quba xanlığından bəylik hüququ almış şəxslər idilər. Xidməti əyanlar, tiyuldarlar, xırda bəylər, Xan Sarayındakı vəzifəli məmurlar, hərbi sərkərdələr xidməti bəylər kateqoriyasına şamil olunurdular. Quba xanının ən çox etimad göstərdiyi şəxslər bəylər sayılırdılar və onlar xanın əsas siyasi və sosial dayağını təşkil edirdilər. Fətli xan hər zaman xidməti bəyləri müdafiə etmiş və iri feodalların separatçılığına qarşı apardığı mübarizədə onlara etimad göstərmişdir [7, 163-164].

Şamaxı xanlığında bəylər xanlıq üsul-idarəsində həmişə yüksək vəzifələrdə fəaliyyət göstərmişdilər. İri bəylər mahalları idarə edir və digər dövlət vəzifələrində çalışır, xırda bəylər isə kəndxuda, yüzbaşı və digər vəzifələrdə fəaliyyət göstərirdilər. S.Ə.İbişov öz əsərində tarixi sənədlərə istinad edərək 1810-cu ildə Quba xanlığının Bərmək, Şabran, Şeşpər, Müşkür, Tip, Xınalıq, Buduq, Yuxarıbaş və Sırt mahallarında 77 bəy ailəsinin yaşadığını göstərir. Bu

bəy ailələri axundlar, seyidlər, mollalar, yüzbaşılar, kəndxudalar, nökərlər və yasavullarla birlikdə vergi verməyənlər kateqoriyasına aid idilər [7, 164-165].

1810-cu il Quba üsyanı nəticəsində əhalinin sosial-silki strukturunda müəyyən dəyişikliklər baş vermişdi. Quba bəylərinin xeyli hissəsi Şeyxəli xanın tərəfində rus qoşunlarına qarşı vuruşduqlarına görə şiddətli repressiyaya məruz qalmışdılar. Onların bir hissəsi sürgünə göndərilmiş, digər bir hissəsinin isə ləyaqəti alçaldılır, kəndləri əllərindən alınır və çar hökumətinə xidmət göstərənlərə verilirdi [7, 167].

İrəvan xanlığında fəaliyyət göstərən sultanlar böyük hüquq və imtiyazlara malik olmaqla yanaşı, xanın yanında yüksək mövqeyə malik idilər. Bu rütbə irsi və yaxud yüksək vəzifə tutan bəylərə verilidi. İrəvan bölgəsində daha yüksək idarəçilik hüququna malik olan sultanlar da fəaliyyət göstərmişdilər. Bu sultanlar İrəvana məxsus olan Maku, Şörəyel və Pəmbək sultanlıqlarını idarə edirdilər [2, 410].

İrəvan bölgəsi əhalisinin silki tərkibində ağalar da xüsusi mövqeyə malik idilər. Xan ailəsinə daxil olan şəxslərə ağa deyilirdi. Bu baxımdan onların əlində böyük imtiyazlar var idi və irsi bəylərə məxsus olan hüquqlardan istifadə edirdilər [2, 410]. Lakin onların mülkiyyət üzərində hüququ bəylərdən fərqlənirdi. Belə ki, ağalar xan tərəfindən kəndləri idarə etmək üçün də təyin oluna bilərdilər. Bu vəzifə irsi və ya müvəqqəti ola bilərdi. Ağalar təyin olunduqları kəndlərin gəlirinin bir hissəsindən istifadə edir və kəndlər onların gəlir mənbəyi sayılırdı. Ağalar və onların yaxınları bütün növ vergi və mükəlləfiyyətlərdən azad olunmuşdular [8, 123-124].

İrəvan bölgəsində kəndlilər 3 qrupa bölünürdülər. Birinci qrupa daxil olan kəndlilər xəzinə, bəy, vəqf torpaqlarında sakin olan rəiyyətlər, yəni bəhrəkərlər adlanırdılar. Bəhrəkər lər öz təsərrüfatlarına, torpaq paylarına, əmək alətlərinə və qoşqu heyvanlarına malik olurdular. Onlar sahibkara becərdikləri məhsulun 1/3-ni və 10 tümən binaçı vergisini ödəyirdilər [2, 416].

Kəndlilərin ikinci qrupuna yarıkərlər daxil idilər. Yarıkərlər başlıca olaraq qaçqın və işsizlərin hesabına yaranırdılar. Birinci Rusiya-Qacar müharibəsi (1804-1813) dövründə İrəvan xanlığında Şörəyel və Pəmbəkdən gəlmiş qaçqın ailələrin sayı hesabına yarıkərlərin sayı çoxalmışdı [2, 416]. İrəvan xanı qaçqınları yerləşdirərək, onlara torpaq paylayır, iş heyvanı, kotan və hər növ toxumla təmin edirdilər. Yarıkərlər təsərrüfatlarını dirçəldənə qədər onların məskunlaşdıqları kəndlərdən vergi alınmırdı. Bir müddətdən sonra yarıkərlər aldıqları borcun əvəzində yığdıqları məhsulun yarısını xəzinəyə ödəməli olurdular [3, 989].

Kəndlilərin üçüncü qrupunu rəncbərlər təşkil edirdilər. Rəncbərlərin vəziyyəti daha ağır idi, onların nə torpağı, nə də əmək alətləri var idi. Rəncbərlər xana, bəyə, din xadimlərinə və vəzifəli şəxslərə məxsus olurdular. Rəncbərlər sahibkar və xəzinə torpaqlarını icarəyə götürməklə yaşayırdılar. İcarə haqqı isə yığılan məhsulun təxminən 2/3 hissəsinə bərabər idi. Bundan başqa rəncbərlər sahibkar üçün ağır mükəlləfiyyət də daşımalı idilər. Bu vəziyyətdə olan kəndlilər sakin təsirini deyil, yaşamaq üçün hər cür çətinliklərlə qatlaşan muzdur işçi təsirini bağışlayırdılar [2, 416-417].

Maldarlıqla məşğul olan köçəri elatlar da kəndli təbəqəsinə aid idilər. Onlar da müxtəlif vergi və mükəlləfiyyətlər daşıyırdılar. Elatlar xan və bəylərin sürüsünü otarır, sahibkarın maldarlıq təsərrüfatında müxtəlif işlər görür və peşkəş adlanan vergi ödəyirdilər. Digər kəndli qruplarına nisbətən sadə elatların vəziyyəti daha yüngül idi. Maldar elatlar İrəvan xanlığının hərbi qüvvəsini əsgər ilə təmin etdiyindən, onlara müəyyən güzəştlər edilirdi. Lakin elatlardan mal-qara, yağ, pendir və yun ilə vergi alınırdı [3, 987].

İrəvan bölgəsində əhalinin aşağı təbəqəsini təşkil edən nökərlər xanın və iri feodalların şəxsi qoruyucuları, hərbi qulluqçular, sərhəd mühafizəçiləri sayılırdılar [2, 418]. Maaflar kimi nökərlər də heç bir vergi ödəmir və mükəlləfiyyət daşımırdılar. Onların sosial bazasını rəiyyətlər təşkil edirdi [9, 101]. Nökərlər İrəvan xanlığının bütün ərazisinə yayılmışdılar və

zəruri hallarda bir yerə toplanırdılar [8, 84]. Onlar məhsul yığılarkən xanın əmri ilə kəndləri gəzərək, məhsul oğurluğunun və itkisinin qarşısını alırdılar. Bu işi yerinə yetirən nökərlər əhalinin hesabına yaşayırdılar [2, 418].

Azərbaycanın digər xanlıqlarında olduğu kimi, Şamaxı xanlığında da kəndlilər 2 təbəqəyə - rəiyyət və rəncbərə bölünürdülər. Kəndlilərin əksər hissəsini rəiyyətlər təşkil edirdilər. Rəiyyətlərin feodalın təhkimlisi olub-olmaması barədə tarixşünaslıqda müxtəlif fikirlər mövcuddur. Əgər əvvəllər rəiyyətlər sahibkarlar tərəfindən bir yerdən başqa bir yerə köçürülə bilməzdisə, xanlıqlar dövründə bu iş sahibkarın arzusu ilə yerinə yetirilə bilərdi. Məsələn, şamaxılı Mustafa xan vaxtilə Qarabağdan Şamaxıya qaçıb özünə sığınacaq tapmış rəiyyət ailələrinin yenidən Qarabağa qayıtması barədə fərman vermişdi [6, 136].

Beləliklə, məlum olur ki, bəhs olunan dövrdə Şimali Azərbaycanın İrəvan, Naxçıvan, Şamaxı və Quba xanlıqlarının sosial strukturu bəzi istisnalar olmaqla bir-birindən o qədər də fərqlənməmiş və müxtəlif sosial təbəqələrin malik olduqları vəzifələr hər bir xanlıqda demək olar ki, eyni olmuşdur. Şimali Azərbaycan xanlıqlarının daxili idarəçilik forması feodal qaydalarını özündə birləşdirən milli adət-ənənləri, qayda-qanunları və şəriət qaydalarını saxlamağa söykənmiş, təsərrüfat həyatında əhalinin aşağı təbəqəsinə müəyyən dərəcədə də olsa, bəzi güzəştlər şamil olunmuşdur. Torpaq sahibkarları əhalinin sahibkar təsərrüfatını və öz yurd-yuvasını atıb getməsi təhlükəsindən ehtiyat edərək, öz işlərinin dayanmaması üçün onların üzərinə qoyulan vergi və mükəlləfiyyətləri bəzi vaxtlarda yüngülləşdirməyə məcbur olmuşdular.

***Ədəbiyyat***

1. Mustafayev Q.X. Qarabağ və Gəncə xanlıqları əhalisinin tarixi-demoqrafik tədqiqi. Tarix elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı: 2008, 28 s.
2. Qarayev E.T. Azərbaycanın İrəvan bölgəsinin tarixindən (XVII yüzilliyin sonu – XIX yüzilliyin ortalarında). Bakı: Mütərcim, 2016, 544 s.
3. Шопен И.И. Исторический памятник состояния Арянской области в эпоху ее присоединения к Российской империи. СП-б: В типографии Императорской Академии Наук, 1852, 1232 с.
4. Bayramova N.Ş. Şamaxı xanlığı. Bakı: "Təhsil", 2009, 396 s.
5. Budaqova S.İ. Naxçıvan diyarının tarixi coğrafiyası (XVIII əsrin ikinci yarısı – XIX əsrin birinci qərinəsi). Bakı: Elm, 1995, 96 s.
6. Ağamalı F.R. XVIII əsrin II yarısı – XIX əsrin əvvəllərində Quzey Azərbaycan xanlıqlarının sosial-iqtisadi vəziyyəti. Bakı: Azərbaycan Ensiklopediyası, 1999, 302 s.
7. İbişov S.Ə. Quba xanlığı: əhali tarixi və azadlıq mücadiləsi. Bakı: "Elm", 2012, 336 s.
8. Колониальная политика российского царизма в Азербайджане в 20-60-х гг. XIX в., ч. I. Феодальные отношения и колониальный режим, 1827-1843 гг. М-Л.: Издательство АН СССР, 1936, 463 с.
9. Петрушевский И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI – начале XIX вв. Л: Издательство Ленинградского Государственного Ордена Ленина Университета имени А.А.Жданова, 1949, 384 с.

## О СОЦИАЛЬНОЙ СТРУКТУРЕ РЕГИОНОВ СЕВЕРНОГО АЗЕРБАЙДЖАНА В НАЧАЛЕ XIX ВЕКА (по Иреванской, Нахичеванской, Шемахинской и Губинской областям)

***Ахмедова Егана Мехман гызы***

***Резюме***

В статье говорится о полномочиях и обязанностях различных сословий, действовавших в административно-управленческой системе Иреванского, Нахичеванского, Шемахинского и Губинского ханств в период Российской оккупации.

Общее содержание статьи показывает, что за некоторыми исключениями не было существенных различий в социальной структуре этих регионов, а обязанности всех слоев общества были практически идентичны. Особенно в указанных регионах обязанности лиц имевшие должность бека, не очень отличались друг от друга, лишь в Губинском ханстве немного различались.

## ABOUT THE SOCIAL STRUCTURE IN THE REGIONS OF NOTHERN AZERBAIJAN AT THE BEGINNING OF 19 CENTURY (about Nakhchivan, Shamakhı, and Kuba regions)

***Ahmadova Yegana Mehman***

***Summary***

The article narrates about the powers and responsibilities of different sectors of Nakhchivan, Shamakhı, and Kuba khanates during the period of Russian occupation. General content of the article shows that, with some exceptions , there were no significant differences in the sosial structure of these regions, and rhe duties all sections of society were almost idential. Especially there were no differens between the sections who took the position “bey” in these regions. Only Kuba khanate was different.

***Rəyçi: dos. Bağırzadə Cavid***
***Azərbaycan tarixi kafedrasının 02 fevral 2023-cü il tarixli iclasın 08 saylı protokolu***
***Daxil olma tarixi14 mart 2023-cü il***

**UOT:94.**

## 30-CU İLLƏRİN FACİƏSİ

***dosent Veyisov Arif Hacı oğlu, Bədəlova Tərlan Səttar qızı,***
***Veyisova Mələk Arif qızı***
***BDU-nun Qazax filialı***
***Ş.Cəbiyev adına Daş Salahlı kənd 02 saylı tam orta məktəb***
***Veyisov.arif@bk.ru***

**Xülasə:** *Məqalə Azərbaycanda kütləvi repressiyaların başlanması, “Novruz” bayramına damğa vurub, mədəniyyət və təhsil abidələrinin dağıdılması, “Xalq düşmənlərinin” sayının artması və digər zərərvericilər və onlara qarşı tətbiq edilən tədbir məsələlərinə həsr olunub.*

*Eyni zamanda məqalədə Azərbaycan xalqının əsas faciəsinin 1938-ci ilə qədər davam etməsindən, yüz minlərlə azərbaycan nümayəndələrinin hakimiyyətin razılığı və quldur dəstələrinin əli ilə bütün “düşünən başların” qondarma “üçlüklər tərəfindən” məhv edilməsindən bəhs edilir.*

**Açar sözlər:** repressiya, faciə, əksinqilabçı, xalq düşməni, təxribatçı, qəsdçi, panislamist, pantükist, trotskiçi

**Ключевые слова:** репрессия, трагедия, контрреволюционер, враг народа, провокатор, заговорщик, панисламист, пантюркист, троцкист

**Key words:** repression, tragedu, contrary revolution, people enemy, saboteur, terrorist, panislamist, panturkist, trotiskist

ÜİK (b) P MK-nin 1937-ci ilin fevral-mart plenumu partiya daxili və sovet demokratiyasını genişləndirmək barədə qərar qəbul etsədə elə oradaca Stalinin məruzəsi üzrə əsaslandırıldı ki, ölkədə geniş ziyankarlıq mövcuddur, sinfi düşmənlərlə kəskin mübarizə aparılmalıdır. Stalin plenumda vurğulamışdı: “Sosializm quruculuğu sahəsində repressiyalar hücumun zəruri ünsürüdür”. [1;184]